# SOCAR-ın prezidenti Rövnəq Abdullayevin Gənclər Günü münasibətilə neftçi gənclərə təbriki

## Əziz neftçi gənclər!

Sizi ölkəmizdə hər il təntənə ilə qeyd edilən 2 fevral - Gənclər Günü münasibətilə təbrik edir, hər birinizə işlərinizdə və ictimai fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.









Sağlam düşüncəli, savadlı, geniş dünyagörüşünə, müasir biliklərə malik, hər zaman xalqına və Vətəninə xidmət etməyə hazır olan gənclik hər bir cəmiyyətin hərəkətverici qüvvəsidir. Buna görə də düzgün qurulmuş gənclər siyasəti dövlətin inkişafında əvəzedilməz rol oynayır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev daim Azərbaycan gəncliyinə diqqət və qayğı ilə yanaşmış, onun hərtərəfli inkişafını, mükəmməl təhsil, ali ideyalar və milli mənəvi dəyərlərə əsaslanan tərbiyə almasını cəmiyyətin prioritetlərindən hesab etmişdir. Gənclər siyasətinin daha uğurlu və effektiv şəkildə həyata keçirilməsi, dövlətin ictimai-siyasi, mədəni həyatında gənc nəslin fəallığının təmin edilməsi məqsədilə 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradılmış, 1997-ci ildən etibarən 2 fevral - Gənclər Gününün ölkə miqyasında təntənə ilə qeyd edilməsinə başlanılmışdır. Azərbaycan gəncləri Ulu Öndərin onlara göstərdiyi yüksək etimadı doğrultmaq üçün var qüvvələri ilə çalışır, dövlətə, dövlətçiliyə, Vətənə sədaqət, xalqımızın tarixinə, dilinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və ehtiram ruhunda uğurla fəaliyyət göstərirlər.

Ümummilli liderimiz Heydər Əliyevin gənclərin inkişaf və rifahına yönəlmiş müdrik, uzaqgörən siyasəti bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir, gənc nəslin sağlamlığı, təlim-tərbiyəsi üçün genişmiqyaslı proqramlar həyata keçirilir. Gənclər Azərbaycanın davamlı inkişafında aparıcı qüvvəyə çevrilir, ölkənin sosial-iqtisadi yüksəlişinə, beynəlxalq nüfuzunun artmasına əhəmiyyətli töhfə verirlər. Gənclərin sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" həyata keçirilmiş, Gənclər Fondu yaradılmışdır. Ölkəmizdə yürüdülən gənclər siyasətinin durmadan inkişafına yönəlmiş bu tədbirlər gənc nəslin ictimai fəallığının artırılmasına, enerji və potensialından daha səmərəli istifadə olunmasına xidmət edir. Bu gün Azərbaycan gənclərinin oxuması, işləməsi, karyera qazanması, ideya və təşəbbüslərini həyata keçirməsi üçün bütün lazımi şərait vardır.



Gənclərə diqqət və qayğı, onların təhsilinin inkişafına, mənəvi-əxlaqi kamilləşməsinə, əmək məşğulluğunun, karyera yüksəlişinin təmin edilməsinə yönələn addımlar SOCAR-ın da başlıca fəaliyyət istiqamətlərindəndir. Gənc mütəxəssislərin hazırlanması, yerləşdirilməsi, karyera yüksəlişi məsələləri daim diqqət mərkəzindədir. Ötən illərdə bu sahədə aparılmış məqsədyönlü tədbirlər nəticəsində kadrların keyfiyyət tərkibində müsbət dəyişikliklər baş vermiş, işçilərin ümumi sayında gənclərin xüsusi çəkisi artmışdır. Şirkətimizdə 2006-cı ildən etibarən həyata keçirilən Təqaüd Proqramı çərçivəsində hər il onlarla tələbə dünyanın ən nüfuzlu universitetlərində təhsil alır, təhsillərini başa vurduqdan sonra SOCAR-da ixtisasları üzrə işləmək, qabaqcıl ölkələrin təcrübəsini neftqaz sənayesində uğurla tətbiq etmək imkanı qazanırlar. Ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin müsabiqədən keçən fərqlənən tələbələrinə SOCAR-ın təqaüdləri verilir. Şirkətimizin strukturunda yaradılmış Bakı Ali Neft Məktəbi fəaliyyət göstərdiyi qısa müddət ərzində gənclər arasında yüksək populyarlıq qazanmış, böyük reytinqə malik ali təhsil ocağına çevrilmişdir. SOCAR-da gənc mütəxəssislərin karyera yüksəlişi, bilik və bacarıqlarının tam reallaşdırılması üçün hər cür şərait yaradılmışdır.



Bu gün gənc nəsil ölkəmizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayaraq sosial həyatın, iqtisadiyyatın bütün sahələrində yaşlı nəsillə çiyin-çiyinə şərəflə çalışır, dövlətin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsi, Vətənin daha da qüdrətlənməsi işinə layiqli töhfələr verirlər. İnanırıq ki, gənclərimiz hər zaman olduğu kimi, bundan sonra da ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edəcək, Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyi kimi qoruyacaq, çalışdıqları sahələrdə daha böyük uğurlar qazanacaq, qarşılarında qoyulan vəzifələrin öhdəsindən şərəflə gələcəklər. Müasir dünyanın qarşılaşdığı bir çox problemlər məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaqdır.

## Əziz neftçi gənclər!

***Bir daha sizin hər birinizi Gənclər Günü münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, cansağlığı, ailə səadəti və gələcək fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.***

*Hörmətlə,*

**RÖVNƏQ ABDULLAYEV**
SOCAR-ın prezidenti